NEXIA INTERNATIONAL Euro Audit premium quality services

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

«Qala Həyat» Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyətinin
Səhmdarlarına və İdarə Heyətinə

Azərbaycan Respublikası, Bakı şəhəri,
R. Behbudov küçəsi, 71.

Biz «Qala Həyat» Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2010-cu il tarixinə balans, gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin axını barədə hesabatlarından, habelə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülasəsindən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

***Maliyyə Hesabatları üzrə rəhbərliyin məsuliyyəti***

Rəhbərlik göstərilən maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

***Auditorun məsuliyyəti***

Bizim vəzifəmiz apardığımız audit əsasında həmin maliyyə hesabatları üzrə rəy ifadə etməkdir. Biz auditi beynəlxalq audit standartlarına uyğun aparmışıq. Bu standartlar bizdən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə hesabatlarının əhəmiyyətli səhvlər risqinin qiymətləndirilməsi auditorun mühakiməsindən asılıdır. Bu risqlər qiymətləndirilərkən auditor müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisənin maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsinə aid olan daxili nəzarət elementlərini nəzərə alır, lakin bu zaman müəssisənin daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmür. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və rəhbərlik tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin aparılması daxildir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

***Rəy***

Bizim fikrimizcə, maliyyə hesabatları 31 dekabr 2010-cu il tarixinə şirkətin maliyyə vəziyyəti və bu tarixdə başa çatmış il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin axını üzrə Beynəlxalq Maliyyə Hesabatları Standartlarına müvafiq olaraq düzgün və ədalətli təsəvvür yaradır.

Euro Audit MMC-nin direktoru – Həsən Haqverdiyev

Auditor – Elçin Əkbərov

28 mart 2011-ci il
Bakı, Azərbaycan Respublikası

Azərbaycan Respublikası "EURO AUDIT" MMC EuroAudit member of Nexia International Azerbaijan Republic "EURO AUDIT" LLC